Bir insan hansısa bir qəbrin yanından keçərkən belə deyər: "Kaş ki, onun yerində mən olaydım" deməyincə Qiyamət qopmayacaq

Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Bir insan hansısa bir qəbrin yanından keçərkən belə deyər: "Kaş ki, onun yerində mən olaydım" deməyincə Qiyamət qopmayacaq".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bir insan qəbrin yanından keçib, onun sahibinin yerində olmağı, yəni ölməyi arzulamayana qədər Qiyamət qopmaz. Buna səbəb batilin və batil əhlinin baş alıb getməsi, fitnələrin, günahların və pis işlərin meydana çıxmasına görə həmin adamın dinini itirmək qorxusudur.

http://www.sunnah.global/hadeeth/az/show/65022